**MÜTƏMADİ VERİLƏN SUALLAR**

**(Təkrar ali və ya orta ixtisas təhsili)**

**Sual 1. Təkrar ali və ya orta ixtisas təhsilinə necə qeydiyyatdan keçməliyəm?**

Təkrar ali və ya orta ixtisas təhsili almaq istəyən şəxslər ilk öncə portal.edu.az saytında qeydiyyatdan keçməlidirlər. Bunun üçün əsas səhifəyə daxil olaraq "Qeydiyyat" düyməsinə sıxmaqla müvafiq səhifəyə keçid edə bilərsiniz.

**Sual 2. Portalda artıq qeydiyyatım varsa, yenidən sistemdə qeydiyyatdan keçməliyəmmi?**

Portalda artıq qeydiyyatınız varsa, yenidən qeydiyyatdan keçməyinizə ehtiyac yoxdur.

**Sual 3. Şifrəmi unutmuşam. Necə bərpa edə bilərəm?**

Şəxsi kabinetə giriş zamanı şifrənizi unutduğunuz halda əsas səhifədən "Şifrəni unutdun?" düyməsini sıxın və açılan pəncərədə ilk öncə elektron poçt ünvanını daxil edin. Açılan növbəti pəncərədə mobil nömrənin son 4 rəqəmini daxil edin. Nömrəyə gələn təsdiq kodu daxil edildikdən sonra yeni şifrə təyin olunmalıdır.

**Sual 4. Sistemə daxil olduqdan sonra hansı xidməti seçməliyəm?**

Sistemə daxil olduqdan sonra "Əlavə təhsilə elektron sənəd qəbulu" xidmətini seçməli və məlumatlarınızı formaya uyğun doldurmalısınız.

**Sual 5. Təkrar ali və ya orta ixtisas təhsilinə müraciət etmək üçün hansı qəbul xəttini seçməliyəm?**

Azərbaycan Respublikasının vətəndaşları qeyri-DİM xətti ilə, əcnəbilər isə digər müvafiq seçimləri etməlidirlər.

**Sual 6. Şəxsi məlumatlarımı necə doldurmalıyam?**

Azərbaycan Respublikasının vətəndaşları üçün şəxsi məlumatlar avtomatik əks olunur. Təsdiqləyirsinizsə, növbəti addıma keçid edirsiniz. Əcnəbilər müvafiq xanalara şəxsi məlumatlarını özləri daxil etməlidirlər.

**Sual 7. Şəxsi məlumatlarımdakı elektron poçt ünvanı və mobil nömrə mənə aid deyil.**

Siz qeydiyyatdan keçdiyiniz zaman istifadə etdiyiniz mobil nömrə və elektron poçt ünvanı şəxsi məlumatlarınızda əks olunmuşdur.

**Sual 8. Qəbul məlumatlarımı necə daxil etməliyəm?**

Qəbul olmaq istədiyiniz təhsil pilləsi, təhsil səviyyəsi, müəssisə, ixtisas, təhsilalma və ödəniş formasını seçməlisiniz. İxtisas şifrəsi avtomatik əks olunur.

**Sual 9. Sənədlərimi hansı formatda əlavə edim? Tək-tək bir neçə səhifə yüklənmir.**

Sənədlərinizi PDF formatında, hamısını bir faylda əlavə etməyiniz məsləhət görülür. Bir neçə səhifəni eyni xanaya əlavə edə bilməyəcəksiniz. Doldurulması vacib sənədlər xanası "Müraciət et" düyməsinə sıxdıqda qırmızı rəng alır.

**Sual 10. Hansı xanalar mütləq doldurulmalıdır?**

"Müraciət et" düyməsini sıxdıqda qırmızı rəng alan bütün xanalara tələb olunan sənəd əlavə edilməlidir.

**Sual 11. Digər sənədlər əlavə etmək istəyirəm, amma xana sayı azdır.**

"Digər sənəd" xanasının yanındakı "+" düyməsinə sıxmaqla xana sayını artıra bilərsiniz.

**Sual 12. Sənədlərimin qəbul edilib-edilmədiyini necə öyrənəcəyəm?**

Bu barədə müraciət etdiyiniz müəssisə sizə sistem və ya SMS vasitəsilə məlumat göndərəcək. Şəxsi kabinetinizi mütəmadi şəkildə izləməyiniz xahiş olunur.

**Sual 13. Hazırda vətəndaş sonuncu kurs tələbəsidirsə, diplom yerinə hansı sənəd yüklənməlidir?**

Əgər təhsil müəssisəsini cari ildə bitirmisinizsə və diplomunuzu əldə etməmisinizsə, bitirdiyiniz təhsil müəssisəsinin təqdim etdiyi bitirmə barədə arayışı yükləyə bilərsiniz.

**Sual 14. Məzun olub, ancaq diplomu əldə etməyən vətəndaşlar diplom yerinə hansı sənədi yükləməlidirlər?**

Məzun olduqları müəssisədən bitirmə haqqında arayış alıb, skan versiyada yükləməlidirlər.

**Sual 15. Əvvəlki təhsil məlumatını necə daxil edim?**

Orta ixtisas təhsili pilləsi və ya bakalavriat üzrə təhsil aldığınız ixtisas üzrə diplom məlumatlarını daxil edirsiniz. Müvafiq məlumatlar seçimdə çıxmadıqda "Digər" xanasını seçməklə özünüz daxil edə bilərsiniz.

**Sual 16. Eyni vaxtda iki müəssisəyə müraciət göndərə bilərəmmi?**

Bəli, eyni zamanda bir neçə müraciət göndərilə bilər.

**Sual 17. Sənədlər hansı formatda yüklənməlidir?**

Sənədlər JPG, PNG, PDF – hər üç formatda yüklənilə bilər.

**Sual 18. Bakalavr diplomu ilə təkrar orta ixtisas təhsili üzrə qeydiyyatdan keçə bilərəmmi?**

Xeyr, keçə bilməzsiniz. Bakalavr diplomu ilə təkrar ali təhsilə, subbakalavr diplomu ilə isə təkrar orta ixtisas təhsilinə müraciət edə bilərsiniz.

**Sual 19. Təkrar ali təhsilə və ya təkrar orta ixtisas təhsilinə müraciət etmək istədikdə seçdiyim müəssisənin adı və ixtisası portal.edu.az-da ekrana çıxmır. Bu halda nə etməliyəm?**

Müəssisə tərəfindən sistemdə əlavə təhsilə icazə aktiv edildikdə müəssisənizin adı və ixtisası portal.edu.az saytında açıq olacaq.